# Görkəmli şəxsiyyətlər Sabir Rüstəmxanlı haqqında



Sal qayanı yarıb çıxan şəffaf bulaq Şairimiz,
Dumanlarda azanlara çıraq, mayaq Şairimiz!
Rüstəmxanlı soyadının üç min əsrin arxasından
Bu günlərə çəkə-çəkə nurlandıran Şairimiz.

**Xalq şairi,**
**Bəxtiyar Vahabzadə**

Sabir Rüstəmxanlı poeziyası milli şüur poeziyasıdır, xalqın, millətin öz mənliyini, əzəmətli keçmişini dərk etmək uğrunda mübarizəsinin, bütün rəsmi və qeyri-rəsmi yalanları, saxtakarlıqları darmadağın etmək yolunda səfərbər olunmuş iradə gücünün, mətanət və mərdanəliyin qarşısıalınmaz ruh qüvvəsinin poeziyasıdır.

❖

...S.Rüstəmxanlı hardasa Səməd Vurğun, Şəhriyar, Rəsul Rza kimi yaxın, Ələkbər Sabir, Füzuli, Nəsimi kimi "uzaq" sələflərindən, Bəxtiyar Vahabzadə kimi çağdaşlarından təsirlənib qüvvət almış, öz yaşıdlarının çoxunu tezliklə arxada qoyub ən yeni Azərbaycan türk poeziyasının ön atəş xəttinə çıxa bilmişdir.

❖

Sabir Rüstəmxanlının böyük milli şairimiz olmaq imkanı var. Çox güman ki, o, bu imkanı əldən verməyəcək.

**Xalq şairi,**
**Xəlil Rza Ulutürk**

Sabir yaradıcılığında lirik duyğular, məhəbbət şeirləri, ən incə hisslərin ifadəsi də önəmli yer tutur. Təsadüfi deyil ki, onun mətnlərinə bir çox gözəl mahnılar yazılıb.

**Xalq yazıçısı,**
**Anar**

75 - Sabir üçün ixtiyar yaşı deyil, sənətkar yaşıdır.

**Xalq yazıçısı,**
**Elçin Əfəndiyev**

Sabir Rüstəmxanlı Azərbaycan ədəbi-ictimai fikrinə, xüsusilə poeziyasına türkçülük ideyalarının bütün təbii axını ilə gəlişinin qarşısındakı maneələri heç bir tərəddüd etmədən inamla qaldıran ilk "sovet şairləri"ndən biridir.

**Akademik,**
**Nizami Cəfərov**

Xalq şairi Sabir Rüstəmxanlının “Qarabağa dönüş” poeması Azərbaycanın ədalətli Vətən müharibəsinin ədəbiyyatda təqdimatına həsr olunmuş geniş həcmli bədii əsərlərin yazılmasına başlanmasının ilk uğurlu paroludur. Bu, Sabir Rüstəmxanlının yaradıcılığında əhəmiyyətli ədəbi hadisə olmaqla bərabər, müasir Azərbaycan ədəbiyyatını zənginləşdirən və istiqamətləndirən bədii əsər kimi də qiymətlidir.

❖

"Qarabağa dönüş" poeması Sabir Rüstəmxanlının yaradıcılığındakı milli-vətəndaşlıq ənənəsinin uğurlu və yaradıcı davamından ibarət olan qiymətli bədii əsərdir.

**Akademik,**
**İsa Həbibbəyli**

S.Rüstəmxanlı Azərbaycanın milli şairi olmaqla yanaşı həm də görkəmli ədəbiyyatşünas-alim, nasir, dramaturq və tərcüməçidir.

**Yazıçı, Mustafa Çəmənli**

Sabir Rüstəmxanlı əqidə şairidir. Bu mənada ustadı Nəsiminin köynəyindən çıxıbdır.

❖

Tariximizin danılmaz həqiqətlərini biz məhz dərslik qədər əhəmiyyətli olan bu kitabdan, “Ömür kitabı” dan öyrəndik, bəhrələndik.

**Yazıçı, Əmir Mustafayev**

Sabirin şeirlərinin ritmində qəribə, heç zaman məcrasından çıxmayan və bunu davranışlarıyla bildirən təmkin var, ən kövrək hisslərin ifadəsində də, ən çılğın ərzi-halların misralara dönüşündə də.

**Filologiya elmlər doktoru,**
**Cavanşir, Yusifli**

Sabir Rüstəmxanlının yaradıcılığı o qədər çoxşaxəli, iftixar doğuran yaradıcılıqdır ki, nədən yazacağının fərqinə varırsan: şair, yazıçı, folklorşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, publisist, qeyrətli ictimai-xadim. Hələ bu az imiş kimi, şəxsiyyət kimi bütövdür, ədalətli və insaflıdır. Gənc yazarlara arxa olandır, örnək azərbaycançı və türkçüdür. Təfəkkür sahibidir, fikir adamıdır. Dostluqda möhkəmdir. Müəyyən səbəblər ucbatından sıxıntıya məruz qalan qələm sahiblərinin yanında olandır...

**Əməkdar elm xadimi, professor**

**Qəzənfər, Paşayev**

“Hər kitab oxucu ünvanına yol gedən qatara bənzəyir. Elə dayanacaqlar var ki, bom-boşdur, amma elə dayanacaqlar da var ki, gələn qatarda nə olub nə olmayacağı bəlli olmur. Sabirin “Ömür kitabı” vaxtında yazılmış bəxtəvər kitabdır! Bir yerinə düşməyən söz var, bir də vaxtına çəkən söz! Sabirin o zamankı sözü vaxtına çəkmişdi. Tez də yazılsaydı elə qarşılanmayacaqdı, bir az gec də! Bir tərəfdə Oljas Süleymenovun “Az i ya”sı o biri tərəfdə bədnam Zori Balayanın “Ocağ”ı yaxşı və ya pis anlamda böyük bir dalğa doğurmuşdu… Toplumlar iki zaman kəsiyi, iki rejim arasında çabalamaqdaydı. Belə bir səs mütləq Azərbaycandan da yanqılanmalıydı. Səs də ki, Tanrıdan gəlir. Bəlkə elə Tanrı da bir səsdir! Və o Tanrı səsi bir başqasının yox, Sabirin qulağına nələrsə pıçıldadı və “Ömür kitabı” yarandı. Tanrı və ilham səsinə hazır olmaq əsas şərtdir. İlham da quş kimidir, qonmağa “budaq”, məkan axtarır. Bəlkə Sabir də daha çox publisistika ağırlıqlı qabiliyyətə sahib olduğundan ilham ilk onun qapısını döydü. Və o da bu fürsəti əldən vermədi. Və nə yaxşı ki, belə oldu!!!”

**Şair,**
**Məmməd İsmayıl**

Sabir Rüstəmxanlı romanlarında Azərbaycan varlığının elə dövrlərini predmet seçir ki, millətin həyatında dönüş nöqtələrini aktualizə edir, dayanışma çağlarına işıq salmaqla gələcək inkişaf yollarına da rəvac verir. Mifoloji, tarixi, ya müasir qatlar yazıçının romanlarında eyni çəkidə, kəsərlidir, lakin əsas deyildir. Çünki Sabir Rüstəmxanlının romanlarında Söz, deyim, diskurs, bədii həqiqətin mənbəyi və mündəricəsi, bir qayda olaraq, "ictimai-siyasi"dir. Bəlkə buna görədir, yazıçı tarixi romanlarını da, - əlbəttə, "tarix"ə xələl gətirməmək şərtilə, - müasirlik kimi yazır; hər yerdə və həmişə milli varlığın, türklüyün, Azərbaycan mənasının bəlirlərini axtarır və əks etdirir.

**Ədəbiyyatşünas, filologiya elmləri doktoru,**
**Tehran Əlişanoğlu**

Sabir Rüstəmxanlı Azərbaycanın ən yaxın tarixinin simvollarından biridir, dövlətimizin ideoloji simalarındandır.

❖

Sabir Rüstəmxanlı estetik dünyagörüşümüzü formalaşdıran yüzlərlə gözəl şeirin müəllifidir.

❖

44 günlük Vətən savaşının çox, amma çox nəticələri var. O nəticələrdən biri də budur ki, Sabir Rüstəmxanlının "Ömür" kitabı Zori Balayanın "Ocaq" cızmaqarasına qalib gəldi. Çünki "Ömür" milli idi, "Ocaq" faşist.

**Jurnalist,**

**Taleh Şahsuvarlı**

75 yaş Sabir bəyin dünyadakı varlığının statistik ifadəsidir. Əslində isə Sabir Rüstəmxanlının həyat kredosu yaşdan asılı olmayan "Son damla qana və son nəfəsə qədər mübarizə"dir.

**Azərbaycan Kərkük Mədəniyyət və Əməkdaşlıq mərkəzinin sədri,**
**Məlahət Qurbanova**

Sabir Rüstəmxanlı yaradıcılığının predmetlərindən biri də Ana dilimizin qorunmağı uğrunda mübarizə olub. Hələ Sovet imperiyasının kəskin qadağalarla meydan suladığı dövrlərdə şair Azərbaycan dilinə qarşı olan etinasızlıqla barışmayıb, daima öz cəsarətini sərgiləyib. Sabir Rüstəmxanlının məşhur "Sağ ol, ana dilim" şeiri bir vətəndaşın, qələm sahibinin ən ziddiyətli dövrdə öz dilinə, "silahına" minnətdarlığı idi.

**Nadir Rzalı**

Sabir Rüstəmxanli yaradıcılığı bir daha təsdiq edir ki, XXI əsrə daxil olan, milli olduğu qədər bəşəri olan Azərbaycan poeziyası ötən əsrlər boyu əldə edilmiş nailiyyətləri qorumaqla yanaşı, ləyaqətlə yaşadır.

**Azərbaycan Milli Elmlər Akademiyasının professor,**
**Salidə Şərifova**